# SİZSİZ-SİZİNLƏ...

*Yaqut*

Bu yazını mən Sizə müraciətlə yazıram, Səyyarə müəllimə. Çünki biz Sizinlə vidalaşmadıq. Vidalaşa bilmədik. Bu Sizsiz keçirtdiyimiz bir neçə ayda biz bir dəqiqə də Sizsiz olmadıq. Hər an Sizi yanımızda hiss etdik. Sizi bir qayğıkeş ana, dost, iş yoldaşı, müəllim kimi yanımızda gördük. Siz bizə böyüklüyü öyrətdiniz...

Mən ilk dəfə Sizi görəndə, birinci qayğıkeşliyinizi hiss etdim. Siz mənə mənəvi dayaq olurdunuz. Yolumuz bir olduğu üçün səmimi söhbətimiz baş tuturdu. Mənim çətin , qayğılı anlarımda öz həyatınızdan misallar gətirərək ürək-dirək verir, elmi iş götürməyə, işləməyə həvəsləndirirdiniz.

O qədər qayğıkeş idiniz ki, Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinə gələndə özünüzdən qat-qat yaşca kiçik olanlarla bir-bir salamlaşır, hamının əhvalını soruşurdunuz. Bayramlarda ha çalışırdım ki, birinci mən zəng edib Sizi təbrik edim, həmişə də gecikirdim. Onda görürdüm ki, telefon zəng çaldı:

«– Səyyarə müəllimə səni çağırır».

Siz kiçiklərə hörmət etmək, onların qayğılarına qalmaqla, bizə böyüklük, ağbirçəklik dərsi verirdiniz. Fakültədə keçirilən bütün tədbirlərdə can-başla iştirak edirdiniz. Gizlincə yaxınlaşıb : «Qızlar, nə çatmırsa heç kimə deməyin, mənə deyin» - deyirdiniz. - « Nə lazımdır mən də alım gətirim».

Biz heç Sizə qıyardıq? Az qalırdıq Sizi dərsə qucağımızda gətirək ki, Sizə əziyyət olmasın. Ürəyiniz dərs üçün, tələbələr üçün çırpınırdı. Xəstə olanda da özünüzü yetirirdiniz. Müəllim dostlarınızın, müdiriyyətin «Ay Səyyarə xanım, evdə qalıb dincələydiniz» – sözünə, «Mən dərsdə dincəlirəm. Dərs deyəndə hər şey yadımdan çıxır» cavabını verirdiniz. Neçə imkansız tələbənin əlindən tutub dekanlığa gətirmişdiniz ki, bunun kitab almağa pulu yoxdur. Fakültədə işləyən,

Sizinlə çiyin-çiyinə dərs deyən Türkiyədən gəlmiş müəllimlər həmin tələbələrə yardım etmişdilər. Dərsdən sonra gecə işləyib, səhərə qədər yuxusuz qalan, səhər dərsə gələn tələbələrinizdən kafedrada ürək ağrısı ilə danışırdınız. Gənc müəllimlərə dərslərinin maraqlı və keyfiyyətli keçməsi üçün məsləhətlər verirdiniz. Axırda proqram da yazdınız. Yəni bunların heç birini bu yaşda heç kim Sizdən xahiş və tələb etmirdi. Siz öz daxili məsuliyyət hissiniz ilə, əsil müəllim qayğıkeşliyi ilə bunları edirdiniz.

Sizin 70 illik yubileyinizi qeyd edərkən fakültənin dekanı AMEA-nın müxbir üzvü, prof. V.Məmmədəliyev bu işə necə də həssaslıqla yanaşırdı. Kafedra müdirimiz dos. M.Qarazadə kafedra iclasları çağıranda Sizi səhhətinizlə əlaqədar başqalarından fərqli olaraq məcbur etmir, öz öhdənizə buraxırdı. Siz isə o iclasların birindən də qalmırdınız. Gələndə isə çantanızda bizə bükülü yemək gətirirdiniz ki, «qızlar, bir şey deyil, mən evdən gəlirəm, siz isə səhərdən buradasızınz» deyirdiniz. Biz Sizə qıymırdıq, Siz isə bizi məcbur yedirdirdiniz. Bu sevgi qarşılıqlı idi. Siz bilirdiniz ki, biz də Sizi çox istəyirik. Siz xəstələnəndə hamı bir-birinə dəyirdi. Qışda yağış, qar yağanda tələbələrdən göndərirdik ki, Səyyarə xanım indi gələcək, gedin yolda durun, kömək edin. Kafedraya daxil olanda, «nə yaxşı bu oğlan da gəlirdi dərsə , çantamla , çətirimi aldı, qolumdan tutdu, sağ olsun» deyirdiniz. Biz isə tez ayağa durub, birimiz Sizin çantanızı alır, birimiz üst geyiminizi asılqandan asırdıq. Hal- əhvallaşandan sonra düz dərsə tələsirdiniz.

«Ay Səyyarə xanım, zəngə hələ var». «Yox, tələbəyə kitab verməliyəm, ev oxusu verməliyəm» deyirdiniz. Onlarla təmənnasız əlavə məşğul da olurdunuz.

Dərsdən çıxanda həyəcanlı olurdunuz. Biz tez çay təklif edirdik. O dəqiqə Sizi evə buraxmırdıq. Görürdük ki, evə gedə bilməzsiniz. Başınızı çayla, söhbətlə qatırdıq ki, bir az təzyiqiniz yerinə düşsün. Sonra yolu Sizinlə bir olmayan dos. Ç.Mirzəzadə « Səyyarə xanım, gəlin gedək». Təəccüblənməyəsizin deyə, «Mən də yuxarıdan gedəcəyəm» deyərək qolunuza girib evə aparırdı Sizi, sonra yenidən qayıdıb aşağı yola düşürdü.

Övladlarınızdan gizlədirdiniz keçirdiyiniz ən ağır anları. Siz onların Sizdən sonrakı hallarını fikirləşib narahat olurdunuz: «Allah, bircə

xəstə yatmayım, oğlanlarım həyəcanlanmasın, gəlinlərim əziyyət çəkməsin» deyirdiniz. Allah-taala Sizin bu arzunuzu da yerinə yetirdi. Heç Sizi xəstə yatmağa da qoymadı. Axırıncı gün dərsə gəldiniz. Öz dərsinizi qaydasınca, həmişəki kimi dediniz və bizimlə atüstü vidalaşıb getdiniz. Heç qoymadınız ki, biz Sizinlə bir görüşək. Nə biləydiniz bu axırıncı gəlişinizdir. Bu gedişi mən Qu quşunun ölümünə bənzədirəm. O, axır nəfəsi yaxınlaşanda göylərə can atır, axırıncı dəfə qanad çalmaq, uçmaq, süzmək istəyir. Və son anda havaya, ən yüksək zirvəyə qalxır.

Siz də bütün ömrünüzü müəllimliyə həsr edən, dərs deməkdən, tələbələrlə ünsiyyətdən zövq alan, öz peşəsinin vurğunu olan bir insan kimi xəstə olmağınıza baxmayaraq, axırıncı dəfə auditoriyaya girdiniz, öz tələbələrinizlə görüşdünüz və elə həmin son dərsdən bir neçə saat sonra bu dünyanı tərk etdiniz. Bu Sizin son uçuşunuz, göylərdə süzməyiniz idi.

Mən Sizin haqqınızda olan bu yazımda Sizin elmi fəaliyyətinizdən, vaxtilə Universitetdə böyük bir kafedraya rəhbərlik etməyinizdən danışmadım. Sizin insani keyfiyyətlərinizdən söhbət açdım. Çünki bizim cəmiyyət indi insanlıq, mənəviyyat böhranı keçirdir. Yaşadığımız cəmiyyətdə ən böyük qəhrəmanlıq elə insani keyfiyyətləri saxlamaq, bu amansız, riyakar cəmiyyətdə sınmamaqdır. Siz bunu bacardınız və bizə də öyrətdiniz. Bunun üçün sağ olun. Əziz, mehriban, gülərüz, qayğıkeş Səyyarə müəllimə.